# Hamının nəzərinə!

**Zorakılıqdan zərər çəkmiş uşaqlara yardım etmək üçün müraciət edin:**

**DİN-in “102” xidməti-zəng mərkəzi sistemi**

Şəhər, rayon icra hakimiyyəti orqanları

Akademik M.Ə.Mirqasımov adına
Respublika Klinik Xəstəxanası
Bakı şəh., Şərifzadə küç., 212
(012) 430-77-38, (012) 431-40-32,
(012) 431-98-41, (012) 433-47-36

Ə.Qarayev adına 2 nömrəli Klinik Uşaq Xəstəxanası
Bakı şəh., Səməd Vurğun küç., məhəllə 956
(012) 595-38-78, (012) 595-38-56, (012) 595-38-58

25 nömrəli Şəhər Poliklinikası
Bakı şəh., Süleyman Sani Axundov küç., 9/33
(012) 561-58-00, (012) 561-24-10, (012) 561-26-67

Uşaq Hüquqları Klinikası
Bakı şəh., D.Əliyeva küç., 251 a, mən. 73
(012) 480-22-31, (012) 496-70-35,
(055) 519-74-52, (050) 480-22-31

Zorakılıq və Cinayət Qurbanı olan Uşaq və
Gənclər üçün Psixo-Sosial Reabilitasiya Mərkəzi
(012) 480-38-75, (050) 589-47-53

«Ümidli Gələcək» Gənclər Təşkilatı
Bakı şəh., N.Gəncəvi küç., 117
(012) 493-21-42, (050) 349-29-48

Azərbaycan Uşaq Qaynar Xətt xidməti
(012) 480-22-80, (050) 680-22-80, (051) 880-11-80

Baxımsız və Hüquq Pozuntusu Törədən Uşaqların
Sosial Reabilitasiyası və Sosial-Hüquqi Xidmət Mərkəzi
Bakı şəh., Sabunçu rayonu, Y.Əliyev küç., 1
Əhalinin Sosial Müdafiə Mərkəzi, 3-cü mərtəbə
(012) 425-67-70, (055) 616-69-64, (055) 751-51-00





# UŞAQ ZORAKILIĞI

***Gəlin, laqeyd qalmayaq!***

Buklet Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli 537 nömrəli Fərmanının 1.2.4-cü, 1.2.8-ci və 1.3.3-cü bəndlərinin icrası ilə bağlı “Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı”na uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmışdır.

## Uşaq hüquqlarını pozan bütün hallar uşaq zorakılığı sayılır.



Böyüklərin uşaqlarla kobud rəftarı onların inkişafına, sağlamlığına və ləyaqətinə zərər vurur.

Psixi və fiziki travmaya səbəb olan davranışlar – zorakılıq (fiziki, psixoloji, cinsi, iqtisadi), qayğısızlıq və etinasızlıq uşaqların həyatında ömürlük iz qoyur.

## Valideynlərə tövsiyə:

- Uşaqla kobud davranmayın
- Zorakılıqdan zərər çəkmiş uşağı diqqətlə dinləyin
- Uşağa öz problemlərini sizinlə bölüşməyə imkan yaradın
- Uşağın dostları və onların ailələri, digər böyüklər və tərbiyəçilər haqqında məlumatlı olun

*Cəmiyyətimizin gələcəyi olan uşaqları qoruyaq və onlara qarşı zorakılıq hallarına göz yummayaq!*

## Zorakılığa məruz qalmış uşağın davranışı bu xüsusiyyətlərlə seçilə bilər:

- valideynlərdən və böyüklərdən qorxur
- az hallarda sevinir
- ağlağan olur, başqa uşaqların ağlamasından qorxur
- ünsiyyətdən çəkinir
- aqressiv olur
- yaltaq olur
- həddindən tez tabe olur
- ağrıdığını gizlədir
- yalançı olur
- oğurluğa meyilli olur
- heyvanlara qarşı qəddar olur
- nitq inkişafı geriləyir
- mütəmadi olaraq dərslərə hazırlıqsız gəlir
- daim fikri dağınıq olur
- aldığı aşağı qiymətlərə görə evə qayıtmağa qorxur
- evdən qaçma halları olur
- spirtli içki, tütünçəkmə və narkotik maddələrdən istifadəyə meyilli olur
- intihara cəhd edir
- cəmiyyətə zidd davranışları ilə diqqəti cəlb edir

## Məlumatlı olaq!

Zorakılığa məruz qalmış uşaqda bu cür fəsadlara rast gəlinir:

- emosional (psixoloji) və intellektual inkişafdan geri qalır
- tez-tez depressiyaya düşür
- spirtli içki, tütünçəkmə və narkotik maddələrdən asılılığı yaranır
- riskli davranışlar edir
- infeksion (İİV, hepatit və s.) xəstəliklərə yoluxur
- ona edilən zorakılığı gələcəkdə artıq özü başqalarına qarşı təkrar edir